# Qələbə

27 sentyabrdan başlayan mübarizə, müharibə yolumuzun bir adı vardı vətən müharibəsi, 30 ilə yaxın bir zaman kəsiyində bu müharibəni yaşamışıq biz qəlbimizdə, ruhumuzda... Hər il işğal olunmuş rayonların anım gününü şagirdlərimizlə qeyd etdikcə vicdanımız yanıb sızlayırdı. Bu millətin şəhidlərinin, əcdadlarının qisasının nə vaxtsa alınacağını bilsək belə vicdanən günahkar kimiydik... Şükür olsun Allaha! Şükür olsun yaradana ki, tökülən qanlarımız yerdə qalmadı, qisasımız alındı, bizim olan bizə qayıtdı... Ruhun şad olsun, Ulu dədəm Pənahəli xan, İbrahim Xəlil xan, ruhun şad olsun xan qızı Natəvan, Vaqif, dahi Üzeyir, ruhunuz şad olsun! Artıq Şuşa məscidində azan səsi eşidiləcək, torpaqlarına öz övladların ayaq basacaq, türk soylu körpələrin nəfəsi ilə canlanacaq vətənimiz, Cıdır düzü öz şanını geri qaytaracaq, o gözəl Qarabağ atlarını bizim igidlər səkdirəcək yamaclarında... Nə böyük xoşbəxtlik bu, Allahım! Qalibiyyətin, qələbənin ən şirini əzabla, əziyyətlə, qan, can bahasına əldə olunandır... Birinci və ikinci Qarabağ savaşlarının igidlərinin tökülən qanlarıyla qazanıldı bu Qələbə!! Böyük və şanlı ordumuz, Ali Baş Komandanımız və arxa cəbhənin görünməz qəhrəmanları! Analarımızın saf duaları inam və imanımız, yumruq kimi birləşən Azərbaycan, Zəfərimizi bunlara borcluyuq! Zəfərimizi daimi eylə, şanımızı yüksəlt, türkü ucaltdıqca ucalt Allahım! Başımızı əyməklə, bir daha eyni acılarla sınağa çəkmə Allahım! Bu 30 ildə çəkdiyimiz acılar əzablar, tökdüyümüz göz yaşları sındırmadı bizi! Azərbaycan qadını evdə, ailədə, Azərbaycan müəllimi isə məktəbdə qəhrəman, yenilməz qeyrətli oğullar tərbiyə etdi. Tarix yazan oğullar! Bundan sonra tariximizə yalnız yüksəliş və qələbə yazılması diləyi ilə... Zəfərimiz daim olsun!

**Məhsəti MİKAYILOVA,**
**Mıxlıqovaq kənd məktəbinin müəllimi.**

# Yaralanmış Vətən Müharibəsi qaziləri evlərində ziyarət olunub

Qəbələ rayon icra hakimiyyətinin rəhbər şəxsləri tərəfindən Vətən Müharibəsi döyüşləri nımış, onlara ərzaq yardımları çatdırmışlar. Həmçinin ölkəmizdə elan edilmiş qismən səfər-



zamanı yaralanan qazilərimiz ziyarət edilmişdir. Ziyarətçilər yaralanmış hərbiçilərin və ailələrinin problemləri ilə maraqlabərlik ilə əlaqədar olaraq hərbi xidmətə göndərilmiş şəxslərin ailələrinə ərzaq sovqatları çatdırılmışdır.

# Laçın

Ömür beşikdən başlanır. Nəhəng çaylara körpə çeşmələr su verir. Geniş yolların başlanğıcı xırda cığırlardır. Balaca evlərin astanasından böyük Vətən dünyasına düşürük. Doğulduğun ocağı duymadan yurdu duya bilməzsən.



Bizə qanad verən balaca yuvalar var. Ata-ana istəyini, baba hirsini və nənə ipəkliyini, yazın, yayın, payızın, qışın rəng və duyğu dəyişmələrini, ana dilimizi, beşik başındakı laylaları və qəbiristanlığı silkələyən ağıları, yaşamağın sevincini və zəhmətin qiymətini- bir sözlə, dünyanın bütün sirlərini bu balaca yuvalarda öyrənmişik. Uzaq ulduzların çağırışından tutmuş torpaqdan zorla seçilən xırdaca çiçəklərin pıçıltısına qədər min bir dildə danışan təbiəti də burada sevmişik. Hissimizdə təmizlik, ağlımızda kəsər, xəyalımızda qanad varsa, ata ocaqlarına borcluyuq. İndi mən ata ocağından, ümman sirri açan damladan, ruhuma qanad verən bir yuvadan–Laçından danışmaq istəyirəm. Uşaqlıq dövrü insan ömrünün bünövrə daşıdır. Dünyaya göz açdığım zaman ilk dəfə gördüyüm, havasını udub, suyunu içdiyim, ömrümdə ilk dəfə ayağımı üzərinə basdığım müqəddəs torpaq, Laçın torpağıdır. Laçın rayonu ölkəmizin cənub qərbində, dağlıq ərazidə yerləşir. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları ilə həmsərhəddir. Zəngin yeraltı və yerüstü sərvətlərə malik olan rayon ərazisi öz füsunkar təbiəti ilə də diqqəti cəlb etmişdir. Ömrümün 22 ilini - insanın ömrünün noğul dövrü hesab edilən qayğısız və fərəhli uşaqlığımı, nağıl dövrü olan gəncliyimi Laçında keçirmişəm. O illər mənim qəlbimdə şirin xatirələrlə qalıb. Otuz ilə yaxındır ki, biz o yerlərin həsrəti ilə yaşayırdıq. Laçına qayıdacağımız günü səbirsizliklə gözləyirik. Çox şükürlər olsun ki, illərlə xəyalımızda canlandırdığımız Laçını tez bir zamanda görmək arzusu ilə üzüzəyik. Azərbaycan Respublikasının müzəffər Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və şanlı ordumuzun qəhrəmanlığı nəticəsində Qarabağ erməni qəsbkarlarından azad edildi. Tezliklə Laçını da bu işğalçılar tərk edəcək və laçınlılar öz doğma yurdlarına qayıdacaqlar. Laçın rayonu yenidən qurulacaq və sakinlərimiz işğaldan öncəki firavan həyatlarını davam etdirəcəklər.

*Söz qoşam qoynunda*
*hər daşa, dağa*
*Saralan çiçəyə,*
*solan yarpağa*
*Yatam qucağında,*
*dönəm torpağa*
*İtməyə qəlbimdə inam,*
*ay Laçın.*
*Məskənim, beşiyim, anam,*
*ay Laçın!!!*

**Fərhad GÜLMƏMMƏDOV,**
**Laçın rayonu.**

# Şuşa, qayıdışın mübarək!

Azərbaycanın qədim şəhəri Şuşa, iyirmi səkkiz il altı aydan sonra düşmən işğalından qurtu-




baq doğulduğum doğma Şuşama qayıdıram, sevincimdən nə edəcəyimi bilmədim. Artıq 30 ilə yaxın xəyalıyla yaşadığım, uşaqlığımı qoynunda keçirdiyim, sədasıyla bütün dünyaya səs salan Şuşa məni gözləyir. Arzularımı reallaşdırıb mənə yenidən doğulduğum torpağı, bu sevinci bütün Azərbaycan xalqına bəxş edən Azərbaycan Respublikasının Milli Qəhramanı Ali Baş Komandan İlham Əliyev və lub xəbəri, noyabrın səkkizi paytaxtdakı Şəhidlər Xiyabanından xalqa müraciətində Prezident, Ali Baş Komandan İlham Əliyevin müjdəsində bütün şuşalılar kimi məni də hədsiz dərəcədə sevindirdi.

Əziz Şuşa. Sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa biz səni dirçəldəcəyik! sözlərini eşidən Şuşa sakini sevinc göz yaşlarını silə-silə dərhal övladlarını və nəvələrini sinəsinə basaraq: "Valideynlərimin arzuladığını mən yaşadım"–deyərək hönkür-hönkür ağlayırsa, bu yer kürəsində heç bir rejissorun çəkə bilmədiyi ssenaridir. Müəllifi Ali Baş Komandan İlham Əliyev tərəfindən yazılan bu əsərin adı, bir il bundan öncə səslənən Qarabağ Azərbaycandır! O Azərbaycan ki, onun İlham Əliyev kimi yenilməz sərkərdəsi, tarix yazan ordusu, hər zaman səmasında dalğalanıb, əsrlər boyu enməyəcək, Şəhid qanıyla boyanmış, Türklüyü, Azadlığı və İslamı özündə birləşdirən, nəhayət, iyirmi səkkiz il altı aydan sonra Şuşa səmasında dalğalanan üç rəngli bayrağı var.

O Azərbaycan ki, artıq bu dünyada üzü ağ, alnı açıqdır. Azadlığı ilə bütün dünyaya səs salan Azərbaycan, qüruru və qüdrəti ilə bütün dünyanı 8 noyabr 2020-ci ildə bir daha silkələdi. Artıq bu tarix Azərbaycanın ən yeni tarixidir.

Eşidəndə ki, 58 il bundan qaonun qüdrətli ordusu, igid vətən oğullarıdır.

Hal-hazırda məskunlaşdığım Zarağan2 ünvanında yerləşən qəsəbə və qəsəbə ətrafında bizim üçün yaradılan şəraiti heç vaxt unutmayacağam. Bu ünvanda yaşayan mən və mənim kimi bütün Şuşa sakinləri yaradılan bu şərait, göstərilən bu qayğı üçün Qəbələ sakinlərinə borcluyuq. Qürurverici bir məqam da hal-hazırda işlədiyim, övladlarımın və nəvələrimin də təhsil aldığı Şuşa 24 nömrəli ümumi orta məktəbin Qəbələ şəhər Zarağan 2 ünvanında yerləşməsidir. Bizim üçün yaradılan bu şəraitə görə bütün Qəbələ sakinlərinə minnətdarlığımı bildirirəm. Odur ki, onların hər birini doğulduğum, qoynuna tələsdiyim, mənə nəfəs qədər yaxın olan, doğma Şuşamın Xarıbülbülünü qoxlamağa dəvət edirəm.

Torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu qarşısında baş əyir, qüdrətli Azərbaycan ordusunun qürururyla fəxr edir, onları bu dünyaya bəxş edən hər bir valideynə bizə bəxş etdiyi qələbə sevinci üçün təşəkkür edirəm

***Qarabağ canda candır***
***O, böyük bir cahandır***
***Hər kəsin yaddaşında***
***Qarabağ Azərbaycandır!***

**Nəbi KALBALIEV,**
**Birinci Qarabağ müharibəsi Veteranı, Şuşa rayon Xanalılar kənd sakini.**

# Biz artıq qaçqın deyilik

Belə bir deyim var: Zamanın çıxardığı hökm ən ali qərardır. Təəssüf ki, 30 il bundan öncəki zamanın hökmü minlərlə insanı ata-baba yurdlarına həsrət qoydu, neçə-neçə məsum, günahsız canlara qıydı. Dünyada misli görünməmiş soyqırıma səbəb oldu. Mən də o zamanın şəhidlərindənəm. 1980-ci ildə Ağdam rayonunun Maqsudlu kəndində anadan olmuşam. Məktəbə ilk qədəmlərimi də elə doğma torpaqlarda qoymuşam. Uşaqlığımın ən gözəl çağlarında isə 1993-cü il iyulun 3-də doğma yurddan ayrılmaq məcburiyyətində qaldım - bütün ağdamlılar, qarabağlılar kimi. Uşaqlığımın ən gözəl, əyləncəli keçirməli olduğum günlərini indi nisgillə anıram. Heyf ki, o yaşlarımı qaçqın, köçkün olaraq yaşamalı oldum. Gözəl kəndimizi, qoynunda böyüyəcəyim dağlarımızı, Şah bulağımızı, məktəb dostlarımı hər şeyi xatirələrimdə götürüb ailəmlə birgə Qəbələyə gəldik. Burada bizi məcburi köçkün kimi yox, əziz qonaq kimi qarşıladılar. Burada böyüyüb, boya-başa çatdıq, hər birimiz bir ailə olduq. Günlərimiz nə qədər xoş keçsə də, həmişə qəlbimizdə bir ağrı, bir qüssə vardı- Ağdam. Amma çox şükür ki, artıq bizim zamandır...Bu günlərdə yaşadığımız sevincimiz 27 illik həsrətimizdən böyük oldu. Çox şükür ki, bütün Qarabağımız geri qayıtdı. Biz bu sevinci canını vətənə sipər edən şəhidlərimizə, qazilərimizə, Ali Baş Komandanımız cənab İlham Əliyevə borcluyuq. Allah müzəffər ordumuzu daim qorusun! İndi biz doğma yurdumuza, torpaqlarımıza qayıdacağımız günü sayırıq, səbrsizliklə gözləyirik. Bəli, mənfur düşmən bizim olan, gücü çatan hər şeyi dağıdıb, yerlə yeksan edib amma bizim yumruq kimi bir olduğumuzu unudub. Nə qədər ki, biz birik o yolları, kəndləri, evləri, məktəbləri yenidən quracağıq. Doğma torpaqlarımız doğma insanların gəlişini hiss edib yenidən canlanacaq və Qarabağımız yenidən dünyaya işıq saçacaq. Yaşasın Azərbaycan!

**Müşfiq KƏRİMOV,**
**Ağdam sakini.**